# "Konstitusiyamız və suverenliyimiz dövlətimizin təhlükəsizliyinin qarantıdır" mövzusunda konfrans

**Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında "Konstitusiya və Suverenlik İli" çərçivəsində "Konstitusiyamız və suverenliyimiz dövlətimizin təhlükəsizliyinin qarantıdır" mövzusunda konfrans keçirilib. Təşkilatın mətbuat xidmətinin məlumatında bildirilir ki, tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.**





Konfransda çıxış edən Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri polkovnik Cəlil Xəlilov "Konstitusiya və Suverenlik İli"nin önəminə toxunub, bu istiqamətdə görülən və görüləcək işlərdən bəhs edib:

"Prezident İlham Əliyevin 28 dekabr 2024-cü il tarixli Sərəncamına əsasən 2025-ci ilin Azərbaycan Respublikasında "Konstitusiya və Suverenlik İli" elan edilməsi, ölkənin hüquqi və siyasi sisteminin əsas prinsiplərinin, eləcə də dövlətin suverenliyinin qorunmasında mühüm addımdır. Bu il ərzində keçiriləcək tədbirlər, Azərbaycan xalqının müstəqilliyinin və dövlətçiliyinin gücləndirilməsinə xidmət edəcək və bu mövzuların daha geniş ictimaiyyətə çatdırılmasına imkan yaradacaq. Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında da "Konstitusiya və Suverenlik İli"nə həsr olunmuş tədbirlər planı təsdiq edilib və bu plana əsasən silsilə tədbirlərin keçirilməsi nəzərdə tutulub.

Konfrans "Konstitutsiyamız və suverenliyimiz dövlətimizin təhlükəsizliyinin qarantıdır" ideyası əsasında keçirilir. Konstitusiya və suverenlik dövlətin daxili və xarici siyasətində əsas meyardır və bu mövzunun müzakirəsi ölkəmizin gələcək inkişafı, hüquqi sabitliyi və milli təhlükəsizliyinin qorunması üçün çox vacibdir.

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə suverenliyimiz, dövlət təhlükəsizliyimiz yüksək səviyyədə qorunur. Bu müstəvidə Azərbaycan Silahlı Qüvvələri, xüsusi xidmət orqanları və digər dövlət qurumları böyük fədakarlıq göstərirlər. Lakin Konstitusiya və suverenliyin qorunması, dövlət təhlükəsizliyinin təmini elə vacib və həyati məsələdir ki, bu prosesdə cəmiyyətimizin hər bir fərdi, eləcə də gənclərimiz və veteranlarımız fəal iştirak etməli, bu prosesə öz töhfələrini verməlidirlər. Biz ulu öndər Heydər Əliyevdən miras qalan dəyər və ənənələri, eləcə də Konstitusiyamızı Prezident İlham Əliyev tərəfindən tam təmin edilən suverenliyimizi qorumalı, bu irsi tarixi bir əmanət kimi gələcək nəsillərə çatdırmalıyıq".

Konstitusiya Məhkəməsi Aparatının Vətəndaşların qəbulu və şikayətlər şöbəsinin müdiri Rüstəm Səlimov, Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin rəisi polkovnik Elşad Əbilov, Dövlət İdarəçilik Akademiyasının Elm və beynəlxalq əlaqələr şöbəsinin müdiri Ağalar Abbasov, Akademiyanın III kurs tələbəsi Nəzrin Abdullayeva, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyətinin üzvü, Birinci Qarabağ müharibəsi və Əmək veteranı İmran Əbilov, Bakı Dövlət Universitetinin professoru İsmayıl Əliyev, Şuşa Rayon Veteranlar Təşkilatının sədri Ağalar Əliyev çıxış ediblər.

Tədbirdə Alyans Azərbaycan Xüsusi Xidmət Orqanları Veteranlarının İctimai Birliyinin sədri polkovnik Fəxri Abbasov, Xüsusi xidmət orqanlarının veteranı Roman Kazımov və digər qonaqlar iştirak ediblər.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**

Respublika .- 2025.- 19 mart (№ 60).- S.9.